# Sənə zəfər yaraşır, Azərbaycan Ordusu!



Müharibə nə qədər arzuolunmaz, nə qədər ağrılı, əzabverici olsa da, bəzən qaçılmaz həddə çatır. Bu gün bizim istəmədən, humanist və sülhsevərliyimizə baxmayaraq, məcburən cəlb olunduğumuz müharibə kimi.

Diqqəti savaşın, müharibənin nə qədər ziddiyyətli olsa da işıq saldığı məqamlara yönəltmək istəyirəm. Bir xalq, bir millət olaraq özümüzü yenidən tanıdıq. Heç nəyin - müvəqqəti məğlubiyyətin, ağır qaçqın-köçkün həyatının, müstəqilliyini yeni əldə etmiş ölkə kimi yaşanılan sosial-iqtisadi problemlərin milli ruhumuzu sındırmadığının, içimizdəki işığı söndürmədiyinin, yeri gələndə eyni amal ətrafında bir ola bilməyimizin şahidi olduq. Üçrəngli bayrağımızın yüksəklikdə dalğalanması naminə arxasınca milyonları apara bilən bir ruh, bir sevda məsələsi olduğunu gördük. Ölümü, qanı heçə sayan, cəsarətilə şəhid olmaq kimi müqəddəsliyə çevirən gənclərimizi gördük. O gənclər ki bu gün üzlərində, gözlərində sevinc, qürur, tərəddüd etmədən cəbhəyə yollanırlar. Bu sevinc qan tökülməsini arzuladıqlarından deyil, vətəni qorumaq, şərəflə yaşamaq kimi ali hissdən doğur.

Bu gün hansı bölgədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün vətən Qarabağdır. Bu gün yaşından asılı olmayaraq, hər bir azərbaycanlı özünü cəbhəyə gedə biləcək yaşda hiss edir. Bu gün hər bir azərbaycanlı üçün vətən sevgisi bütün sevgilərin fövqündədir.

Ali Baş Komandanın əmrini gözləyirdik. Nəhayət, o gün gəldi, əmr verildi, hamı bir nəfər kimi cənab Prezidentin ətrafında birləşdi.

Zəfəri, qələbəni çoxdan haqq edən, buna yetərincə gücü çatan Azərbaycan Ordusu öz tarixi torpaqlarının uğrunda haqq savaşına çıxdı. Dünyanın bəlkə də ən sülhsevən qadını olan türk anaları, hətta övladı cəbhənin ən qaynar nöqtəsində olan analar belə torpaqlarımız işğaldan azad olmayınca müharibənin dayanmasını istəmirlər.

Azərbaycan xalqı çoxdan həsrətində olduğu qələbənin arzusundadır. Haqqımız olan nəsibimiz olsun.

Sənə zəfər yaraşır, Azərbaycan Ordusu!

***Aygün BAGIRLI,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan.- 2020.-7 oktyabr.- S.11.